HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 yanvar 2017-cı il
№002 (40)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## TÜRKİYƏ PARLAMENTİ PREZİDENT İDARƏETMƏSİNƏ TƏRƏFDAR OLDUĞUNU BİLDİRDİ

Prezidentin hakimiyyət müddətini 2029-cu ilədək uzadacaq qanunun yekun təsdiqi bir neçə aydan sonra keçiriləcək ümumilli referendumla əldə ediləcək

Türkiyə parlamenti konstitusiya islahatlarına dair qanun layihəsini təsdiq edib. Bu qanunun yekun təsdiqinin bir neçə aydan sonra keçiriləcək ümumilli referendumla əldə ediləcəyi gözlənilir.

Qanunvericilər sənədi 339 lehinə, 142 əleyhinə səs verməklə təsdiq ediblər. Qanunun təsdiq olunması üçün 550 parlament üzvündən 330-unun səsi tələb olunurdu.

Rəcəb Tayyib Ərdoğanın tərəfdarları sənədin ölkəyə sabitlik gətirəcəyini deyir, onun oppnentləri isə bunu avtoritar rejimə addım kimi qiymətləndirirlər.

Daha öncə parlament 18 maddədən ibarət sənədin ilk 7-sini ikinci səsvermədə təsdiq etmişdi.



Ədalət və İnkişaf Partiyasını dəstəkləyən millətçi MHP partiyası zəif koalisiya hökumətinin yaradılmasına mane olmaq üçün güclü idarəçiliyə ehtiyac olduğunu bildirir.

## AZƏRBAYCAN GÜRCÜSTANLA SƏRHƏDDƏ QATARLARIN YOXLANMASINI TEZLƏŞDİRMƏK NİYYƏTİNDƏDİR



Cari ilin fevralından Azərbaycan Böyük Kəsik stansiyasında dəmiryol nəqliyyatının yoxlanmasını tezləşdirmək niyyətindədir. Bu barədə Azərbaycan Dövlət Gömrük Komitəsinin (ADGK) başçısı Aydın Əliyev məlumat verib.

O, bu məqsədlə artıq stansiyada qatar hərəkətdə olarkən vaqonları yoxlayan xüsusi avadanlığın quraşdırılmasının başa çatdığını bildirib.

Aydın Əliyev deyib: “Burada bir sıra məsələləri də həll etmək lazımdır: xüsusi relslərin quraşdırılması, qatarlar üçün lazım olan sürətin müəyyənləşdirilməsi və s. Bütün bu məsələlər artıq “Azərbaycan Dəmir Yolları” QSC-lə razılaşdırılır və fevralda bu nəzarət sistemi istismara veriləcək”.

ADGK-nin başçısı belə sistemin artıq Rusiya ilə sərhəddə Yalama stansiyasında tətbiq olunduğunu bildirib.

Bu texnologiyanın əsas üstünlüyü ondadır ki, yüklər qatar hərəkətdə olarkən yoxlanılır və bu, dayanacaqda vaxt itkisinin, yüklərin boşaldılıb yenidən doldurulmasının qarşısını alır.

2 MÜTALİƏSİZ QALAN GƏNCLİK VƏ BİZ

SAVALAN MİRZƏYEV: ÖLKƏDƏ BİZƏ İKİNCİ DƏRƏCƏLİ MİLLƏT KİMİ BAXAN YOXDUR 3

4 RUSİYA-TÜRKİYƏ YAXINLAŞMASI FONUNDA DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNİN HƏLLİ YOLLARI

YETİM GÜRCÜ (boheme) 5

6 CƏMİYYƏTİMİZİN “ÖLÜ” İNVESTİSİYASI

MƏDƏNİYYƏT VƏ FƏRD HAQQINDA 7

## BAŞ NAZİR GÜRCÜSTANDA GÜNƏŞ ELEKTRİK STANSİYASININ TİKİLƏCƏYİNİ ELAN ETDİ



Gürcüstanda ilk günəş elektrik stansiyasının tikintisi üçün texniki-iqtisadi tədqiqatlara başlanılacaq. Bu barədə yanvarın 24-də hökumətin iclasında bəlli olub.

Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili bəyan edib ki, sərmayəçilər 18 ay ərzində səkkiz müxtəlif sahəni öyrənəcək, bundan sonra günəşlə işləyən stansiyanın tikintisi haqqında qərar qəbul olunacaq.

Baş nazir yaxınlarda Kareli rayonunda külək elektrik stansiyasının işə düşməsini xatırladıb və hökumətin gələcəkdə bu energetika sahəsinin inkişafı üçün sərmayəçilərdən təklif alacağına ümidvar olduğunu bildirib.

Xatırladaq ki, 20,7 MVt gücündə ilk külək elektrik stansiyası olan “Kartli” Qori şəhəri yaxınlığında 2016-cı ilin oktyabrında işə salınıb. Gələcəkdə onun gücünü 300 MVt-dək artırmaq mümkün olacaq.

## KOBAXİDZE: GÜRCÜSTAN KONSTİTUSİYASI MAKSİMUM YIĞCAM OLACAQ



Konstitusiya komissiyasının rəhbəri, ölkə parlamentinin sədri İrakli Kobaxidze Gürcüstan Konstitusiyasına dəyişikliklər edilməsinə dair hazırlıq prosesi barədə danışıb.

İnsan hüquqları sahəsində işçi qrupu ilə ilk görüşündə Kobaxidze Konstitusiya komissiyasının ölkənin əsas qanununu maksimum yığcam hazırlamağa çalışdığını bəyan edib.

O, Konstitusiyaya daxil ediləcək təshihlərin üç mərhələdə həyata keçiriləcəyini bildirib. Komissiya birinci mərhələdə mövcud fikirlərin hamısını müzakirə edəcək, ikinci mərhələdə maddələr üzrə müzakirələr keçiriləcək, üçüncü mərhələdə isə ümumxalq müzakirəsinə veriləcək son variant razılaşdırılacaq.

Konstitusiyaya öz düzəlişlərini müxalifət daha fəal şəkildə təqdim edir. Müxalifət əmək hüquqnun qorunmasının tənzimlənməsi, parlamentə majoritar seçki sisteminin ləğv olunması, hakimlərin təyin edilməsi üçün meyarların genişləndirilməsi uğrunda çıxış edirlər.

Konstitusiya komissiyası ölkənin əsas qanununa əlavələr edilməsi işinə 2016-cı ilin dekabrında başlayıb. Deputatlar, icra və məhkəmə hakimiyyətinin nümayəndələri, QHT və ekspertlər düzəlişlərin son variantını aprelin 30-dək təqdim edəcəklər.Konstitusiya komissiyasının tərkibində bir neçə işçi qrupu yaradılıb.

## AVROPA ŞURASININ BAŞ KATİBİ TURBERN YAQLAND GÜRCÜSTANDA SƏFƏRDƏ OLUB

Avropa Şurasinin Baş Katibi Turbern Yaqland Gürcüstanda rəsmi səfərdə olub.

Turbern Yaqland əvvəlcə Gürcüstanın XİN-nin başçısı Mixail Canelidze ilə görüşüb. Görüşdən sonra Gürcüstanın XİN-də Mixail Canelidze və AŞ rəhbərinin birgə mətbuat konfransı keçirilib.

Yayılan məlumatda Gürcüstana səfəri çərçivəsində Turbern Yaqlandın Gürcüstan Prezidenti Georgi Marqvelaşvili, Baş Nazir Georgi Kvirikaşvili, ölkə parlamentinin sədri İrakli Kobaxidze, Gürcüstanın Ədliyyə naziri Teo Sulukiani, eləcə də Barış və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət naziri Ketevan Çxelaşvili ilə görüşlər keçirdiyi də bildirilib.



# MÜTALİƏSİZ QALAN GƏNCLİK VƏ BİZ

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Orta və yaşlı nəslin nümayəndələri yeni nəsli – gəncləri deyirəm, yəqin anladınız – mütaliə etməməkdə qınayıb tez-tez topa-tüfəngə tutmaqdan ləzzət alırlar. Orasını demədən keçmək istəmirəm ki, bizim tənqid etməkdən, öyüd-nəsihət verməkdən ötrü ürəyinin başı tökülən bir toplum olduğumuzu da yaddan çıxarmayın. Deyək ki, gənc nəsil kitab ağzı açmır, mütaliə etmir, iti görüm, qurdu görüm, təkcə kitaba yaxın durmayım deyir. Böyüklər də dil boğaza qoymadan onları danlayır, biçarələrin danlanmaqdan üzləri dan əppəyinə dönür və biz bu mütaliə məsələsində yerimizdə saymaqda davam edirik: köhnə hamam, köhnə tas. Gənclərimiz kitaba yaxın durmur ki, durmur. Niyə? Nədən ötrü? Bəs nə edək? Çıxış yolu nədədir?**

Oradan başlayaq ki, ey bizim orta və yaşlı nəslin özünü ağsaqqal sayıb iddiası yerə-göyə sığmayanları, indi mən sizdən soruşmaq istəyirəm: sonuncu dəfə hansı kitabı oxumusunuz? Mən əksəriyyətinizin yerinə and içə bilirəm ki, siz özünüz illərdir kitab görəndə az qala cin-şeytan görmüşə dönürsünüz. Və sizi örnək hesab edən gənc nəsil də sizin bu tutamanızı görüb elə bilir ki, kitab yaxına qoyulası bir zad deyil. Dədəmiz Qorqudun öyüdlərindən birində oğul atasından görməsə neyləyə bilər – deyilir, yəni dünya görgötür dünyasıdır. Sən kitabı sev, kitabı evinin baş tərəfinə qoy, göz bəbəyi kimi qoru, onu sevgiylə aç ki, sənin övladların da sənin yolunla getsinlər. Atalar deməyiblərmi ki, oğul atanın kövşənini əkər? Atalarımız bunu da deyib: ana gəzdiyi ağacı bala budaq-budaq gəzər. İndi siz nə etmisiniz ki, övladlarınız da sizin yolunuzla getsinlər? Cavabsız sualdır, deyilmi? Düzü mən bu vaxtadək halva-halva deməklə ağızın şirin olmasını görməmişəm.

Biz, yəni böyüklü-kiçikli hamımızı deyirəm, əminliklə deyim ki, son dönəmlərdə dünyanın ən az kitab oxuyan xalqlarındanıq. Axı, bizə nə oldu, hansı yaman gözə tuş gəldik ki, kitabdan bu qədər uzaqlaşdıq, aralı düşdük? Bunun səbəbsiz olmadığını çoxlarımız bilirik. Bir-ikisini də mən yuxarıda xatırlatdım. Bir-ikisini də indi qulluğunuza ərz etdimmi mənzərə bütün çılpaqlığı ilə qarşınızda canlanmalıdır. Ondan sonra mənimlə razılaşıb, razılaşmamanız qalacaq sizin insafınıza.

Bəyənmədiyimiz sovet dönəmində hər kəndin özünün mədəniyyəti evi, ən azından pis-yaxşı bir klubu olurdu və burada mütləq "n" qədər kitabı özündə barındıran bir kitabxana da olurdu. Hər məktəbin bir kitabxanaya malik olduğunu da bu deyilənlərin üzərinə əlavə etsək, görərik ki, 25-30 il bundan öncəyə qədər insanların mənəvi ehtiyaclarını ödəməsi üçün kifayət qədər bazaya malik olmuşuq. Nə gizlətməli, bunun nə danı var, nə də daldası, həmin kitabxanalarda saxlanılan kitabların bir hissəsi indiki dünyagörüşümüzlə tərs gəlirdi və atılmalı, maklaturalıq bir zad idi. Amma kitabxana var idi və hər kitabxananın da bəlli sayda oxucusu olurdu. Yəni cəmiyyətin kitaba ehtiyacı var idi və üstəgəl, kitab oxumaq, toyda-vayda oxunmuş kitabdan ədəb-ərkanla sitat gətirmək dəb sayılırdı. Cavan qızların, sütül oğlanların oxuduqları kitabların qəhrəmanlarına bənzəmək istəmələri də təbii qarşılanırdı. Belə desək, kitab gənc nəslin tərbiyəsində, dünyagörüşünün formalaşmasında müstəsna bir missiyanı yerinə yetirirdi. Kitab insanlara hörmət-izzət, sevgi, gözəllik kimi dəyərlər aşılamaqda əvəzsiz qaynaq rolunu oynayırdı. Amma təəssüf edək ki, bu gün nə kitabxanalar var, nə də kitab oxuyanlar – oxucular. Bütün bunlar artıq tarixə qovuşub və ya tarixə qovuşmaq üzrədir.

Bütün bunları isə yeni vasitələr – internet və sosial-şəbəkələr əvəz edib. Elə buradaca deməyi vacib sayıram ki, biz texnoloji yeniliklərin qarşısına da çəpər olmamalıyıq. Nədən ki, bu yeniliklər zamanın ruhuna, abu-havasına uyğundur və bu gün həyatımızı bunsuz təsəvvür etmək mümkün deyil. Amma çoxlarımız uşaqlarımıza internetdən elm-bilik almağı öyrədə bilməyəcək qədər geridə qalmamışıqmı? Bilgisayarlarla, planşetlərlə, smartfonlarla baş-başa buraxdığımız övladlarımızın hara getdiyindən xəbərimiz varmı? Onları virtual aləmlə üz-üzə qoymaqla biz donuq, laqeyd, gerçəkliklə uyğunlaşa bilməyən bir toplum yaratmırıqmı? Bu sualları açıq saxlayıram. Amma gəlin elə düşünməyək ki, bu suallara cavab tapılmır və bu sualların cavabı yoxdur.

Bu gün insanların kitablardan aldıqları mənəvi qidanın böyük bir hissəsini filmlərdən, seriallardan əldə etmələri də danılmaz bir gerçəkdir. Ancaq bir gerçəyi də unutmayaq ki, seriallara aludəçiliyin insanlarda yarada bildiyi psixoloji sapmaları bu sahənin araşdırmaçıları tez-tez bizə xatırlatmaqdadırlar. Sözarası onu da deyim ki, yaxın keçmişdə çox kitab oxuyanlar haqqında da xalq arasında buna bənzər fikirlər dolaşırdı. Həm də film seyr etmək hələ kitab oxumaq anlamına gəlmir. Kitabla munislik etməyin, kitaba könül bağlamağın, onu həyatıyın bir parçasına çevirməyin sənə bəxş edəcəyi gözəlliyi heç nə əvəz edə bilməz.

**...Bəs nə edək? Bəlkə hər birimiz uşaqlarımızda mütaliə vərdişi yaradaq, onlarda kitaba sevgi oyadaq? Bəlkə bankların, restoranların, oyun klublarının, kazinoların, vitrinləri gəl-gəl deyən marketlərin arasında kiçik də olsa bir ictimai kitabxananın əsasını qoyaq? Elə bu gündən başlayaq, yaşadığımız kənddə, qəsəbədə, şəhərdə bir ilkə imza ataq. İnanın ki, bizi dəstəkləyən xeyirxah insanlar tapılacaq, bizə qahmar çıxan ictimai təşkilatlar, dövlət qurumları mütləq olacaq. Mən buna inanıram...**

# GYMD UNİVERSİTET TƏLƏBƏLƏRİ ÜÇÜN "QANLA YAZILMIŞ MÜSTƏQİLLİK TARİXİMİZ" ADLI SEMİNAR TƏŞKİL ETDİ

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşəbbüsü ilə Tiflisdəki "Saburtalo Tələbə Yurdu"nda xalqımızın müstəqillik tarixində müstəsna yeri olan 20 yanvar faciəsinin 27-ci ildönümünə həsr olunmuş "Qanla yazılmış müstəqillik tariximiz" adlı seminar təşkil edilib.

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Tiflisdəki "Saburtalo Tələbə Yurdu"nda "Qanla yazılmış müstəqillik tariximiz" adlı seminar təşkil olundu. Seminarın mühazirəçisi Qardabani bələdiyyəsi Kosalı ictimai məktəbinin tarix müəllimi və "Yeni Yol" qəzetinin redaktoru Afiq Muxtaroğlu Azərbaycan xalqının azadlıq yolunda apardığı mücadilədən və bu mücadilənin gedişində sərgilədiyi mərdlik və cəsarətdən, onun azadlıqsevərlik ruhundan bəhs etdi. Buna ən bariz nümunə olaraq yaxın tariximizdə, yəni 1990-cı ilin 20 yanvar gecəsində baş vermiş hadisəni misal gətirdi. O, bu hadisənin milli faciə kimi deyil, əksinə xalqın bir qəhrəmanlıq tarixi kimi anılmasının gərəkliliyini vurğuladı. Məruzəçi, Azərbaycan Respublikasının



müstəqilliyinin məhz həmin gün şəhid olanların qəhrəmanlıqları sayəsində əldə olunduğunu qeyd etməyi də unutmadı.

Seminarın sonunda A. Muxtaroğlu tələbələri maraqlandıran sualları cavablandırdı.

Onu da qeyd edək ki, seminarda Tbilisinin müxtəlif universitetlərində təhsil alan tələbələrlə birlikdə "Uğur" təşkilatının sədri və eyniadlı jurnalın redaktoru Hacı Bəkiroğlu, "Saburtalo Tələbə Yurdu"nun müdiri Rüstəm Mazanov və "Qardabani Gənclər Mərkəzi"nin sədri Elsevər Əhmədov da iştirak edirdilər.

# GÜRCÜSTAN THE ECONOMİST-İN DEMOKRATİYA REYTİNQİNDƏ 78-Cİ PİLLƏNİ TUTUB

The Economist
Intelligence Unit

Britaniyanın The Economist Intelligence Unit tədqiqat mərkəzi Gürcüstanı keçid dövrü demokratiyası kimi qiymətləndirib.

Gürcüstan The Economist jurnalının tərtib etdiyi Demokratiya reytinqində 167 ölkə arasında 78-ci yeri tutub.

İndeksi tərtib edərkən təşkilat 60 müxtəlif göstəricini nəzərə alıb.

Ekspertlər Gürcüstanı "keçid rejimi" kimi dəyərləndiriblər. Ölkə hökumətin fəaliyyəti və siyasi mədəniyyət nöqteyi-nəzərindən 10 mümkün baldan 4,29 və 5 bal, seçki prosesi və plüralizmdən isə 8,67 bal alıb.

Məruzədə 167 ölkənin təxminən yarısı bu və ya digər dərəcədə demokratiyaya aid edilib, lakin "tamdəyərli demokratiya"nın sayında ötən il ciddi azalma müşahidə olunub. Bununla belə, 2016-cı ildə heç bir regionda demokratiyanın orta balının artması qeydə alınmayıb.

Norveç, İslandiya, İsveç, Yeni Zelandiya, Danimarka, Kanada, İrlandiya, İsveçrə, Finlandiya və Avstraliya Demokratiya indeksinin ilk onluğunda qərarlaşıb.

İndeksdə Almaniya 13-cü, Böyük Britaniya 16-cı, ABŞ 21-ci, Türkiyə 97-ci, Rusiya isə 134-cü pillədə yerləşib.

# TBİLİSİDƏ BEYNƏLXALQ GÖMRÜK GÜNÜNƏ HƏSR OLUNMUŞ KONFRANS KEÇİRİLİB

Konfransda müxtəlif ölkələrdən və Beynəlxalq Gömrük Təşkilatından 170-dən çox nümayəndə iştirak edib. Tədbiri Gürcüstan Baş Nazirinin birinci müavini Dmitri Kumsişvili açıb. Konfransda Azərbaycan Dövlət Gömrük nazirinin müavini Əsgər Abdullayev, Gürcüstan Dövlət Gəlirlər Xidmətinin rəhbəri Georgi Tabuaşvili də çıxış ediblər.

Azərbaycan, Gürcüstan, Türkiyə, Moldova və Ukrayna gömrük təşkilatlarının rəsmi şəxsləri ölkələr arasında terrorizm, kontrabanda və narkotiklə mübarizə sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Türkiyə Gömrük və Ticarət nazirinin müavini Fatih Çiftçi Gürcüstana səfəri çərçivəsində Gürcüstan və Azərbaycan sərhədində yerləşən Qırmızı Körpü gömrük-buraxılış məntəqəsinə baş çəkərək, türk sürücülərin sərhəddən keçməsilə bağlı yaranan gecikmə problemləri ilə maraqlanıb. Fatih Çiftçi Gürcüstan tərəfilə mövcud problemlərin aradan qaldırılması sahəsində əməkdaşlıq etməyin, birgə tədbirlər görməyin vacibliyini vurğulayıb.

# 2016-CI İLİN XARİCİ TİCARƏT DÖVRİYYƏSİNƏ DAİR MƏLUMATLAR AÇIQLANDI

2016-cı ildə Gürcüstanın xarici ticarət dövriyyəsi (qeyri-mütəşəkkil ticarət nəzərə alınmadan) 12 milyard dollar təşkil edib. Bu da 2015-ci ilin göstəricilərindən 20% çoxdur.

2016-cı ilin 12 ayı ərzində ixrac 2,1 milyard dollardan çox olub ki, bu da, 2015-ci ilin göstəricilərindən 4% azdır. Məlumatı Gürcüstanın Milli Statistika Xidməti yayıb.

Bu dövrdə ixrac strukturunda əsas yeri ferroərintilər, minik avtomobilləri, qara metal qırıntıları, emal olunmuş və ya yarım emal olunmuş qızıl, meşə fındığı və qoz təşkil edib.

Bu dövr ərzində ixrac reeksportsuz 1,7 milyard dollar və ya 2015-ci ilin müvafiq göstəricilərindən 1% çox olub.

2016-cı ildə idxal 9,9 milyard dollar təşkil edib.

Neft və neft məhsulları, minik avtomobilləri, habelə neftli qaz və qazabənzər karbohidrogenlər, taxıl, elektrik transformatorları və dərman vasitələri isə əsas idxal malları olub.

Hesabat dövründə mənfi ticarət balansı 7,7 milyard dollardan çox olub ki, bu da bütün xarici ticarət dövriyyəsinin 65%-i deməkdir.

# SAVALAN MİRZƏYEV: ÖLKƏDƏ BİZƏ İKİNCİ DƏRƏCƏLİ MİLLƏT KİMİ BAXAN YOXDUR



***H. B. – Savalan bəy, sizi qəzetimizin əməkdaşları və oxucuları adından salamlayır, gec də olsa ölkə parlamentinə seçilməniz münasibətilə təbrik edirik.***

S. M. – Minnətdaram. Mən də öz növbəmdə qəzetinizin kollektivinə göstərdiyi diqqətə görə təşəkkürümü bildirirəm. O cümlədən oxucularınızı da salamlayıram.

***H. B. – Hörmətli deputat, inanırıq ki, oxucularımız bu və ya digər şəkildə sizi tanıyır, haqqınızda nəsə eşidiblər. Amma biz istəyirik ki, əlbəttə əgər sirr deyilsə, özünüzü oxucularımıza təqdim edəsiniz, onlara şəxsi keyfiyyətləriniz, xüsusi maraqlarınız barədə məlumat verəsiniz. Belə demək mümkünsə, Savalan Mirzəyev öz obrazını necə yaradardı? Orasını da qeyd edək ki, bu elə bizim üçün də maraqlıdır.***

S. M. – Özüm haqqında danışmağı xoşlamıram, bir onu deyə bilərəm ki, mən də sizlər kimi sadə, öz vətənini, xalqını sevən bir insanam.

***H. B. – Artıq uzunmüddətli, hətta kifayət qədər çətin və ağır seçki prosesləri arxada qalıb və siz doqquzuncu çağırış Gürcüstan parlamentinin deputatısınız. Belə bir çətin prosesdən qalib kimi çıxmağın çətinliyi də bəllidir. Sizin qalib gəlmənizin, seçicilərin rəğbətini qazanmanızın sirri nədədir? Burada sizin hansı şəxsi keyfiyyətləriniz daha önəmli rol oynadı və ya bizim bilmədiyimiz hansı nüanslar sizin seçkilərdən qalib kimi ayırılmanızı təmin etdi? Zəhmət olmasa bu barədə danışardınız.***

S. M. – Seçkiqabağı kampanyamda ilk növbədə mən səmimiliyə üstünlük verdim. Belə ki, seçicilərlə səmimi oldum, yalan danışmadım və bunu seçicilərimə çatdırmağa çalışdım. Seçiciyə qalib gəlmək xatirinə yalan danışıb, real olmayan vədlər vermək olmaz, mən də məhz bunu etdim, problemlərin real həllindən və həyata keçirilə biləcək və real görülə biləcək işlərdən danışdım, real sözlər verdim. Sakinləri dinlədim, onlar bir neçə dəfə qeyd etdilər ki, nə bir deputat, nə də bir deputatlığa namizəd heç vaxt bizi dinləməyib, sadəcə bizdən səs istəyib. Hətta mən görüşlərimdə onlara seçimlərində azad olduqlarını da bildirirdim və bəyəndikləri namizədə səs verə biləcəklərini də xatırladırdım. Düşünürəm ki, xalqımız səmimiyyətimi başa düşərək mənim qalib gəlməmə yardım etdi. Bir daha seçicilərimə qəzetiniz vasitəsiilə təşəkkürümü bildirirəm və buradan onların etimadını doğruldacağımı bir daha bildirmək istəyirəm

***H. B. – Savalan bəy, siz bir neçə aydır ki, parlamentari kimi fəaliyyət göstərirsiniz. Bu yeni fəaliyyət sahəsində qarşılaşdığınız çətinliklər və ya maraqlı məqamlar barədə məlumat verməniz yerinə düşərdi? Və bir də sizin deputat kimi fəaliyyətiniz əsasən hansı sahə ilə bağlıdır? Yeni il ərəfəsində, öz şəxsi büdcənizdən imkansız ailələrə kömək etməniz, belə bir şəxsi təşəbbüsdə bulunmanız sizə səs verən seçicilərin ürəyincə oldu, hətta bunu sizin rəqibləriniz də etiraf etdilər. Sirr deyilsə, tərəfinizdən siçicilərinizi daha hansı "sürprizlər" gözləyir?***

S. M – Parlamentdə işlərimiz uğurla davam edir. Çətinliklərlə qarşılaşmıram, ancaq işimin məsuliyyətini bir an da olsa unutmuram. Əsas deputat fəaliyyətimi öz seçicilərimin maraqlarına yönəltmişəm, rəsmi olaraq Sosial Demokratlar – Gürcü Arzusu fraksiyasının sədr müaviniyəm, Konstitusiya Komissiyasının üzvüyəm, parlamentdə məşğuliyyətim çoxdur. Əlbəttə ki, hər şeydən öndə seçicilərimin marağı olacaq. Mənim parlamentdəki əsas vəzifəm və deputatlıq həyatımdakı məqsədim Qardabani sakinlərinə, eləcə də Qardabani bölgəsinə xidmət etməkdir. O cümlədən istəmirəm ki, bizlər parlamentdə yalnız öz bölgəmiz üzərində çalışaq. O üzdən də hər bir sahədə parlamentin iş prosesinə tam şəkildə qatılıram.

Bəli, yeni il ərəfəsində belə bir iş gördüm, ancaq o işin mənim deputatlığıma heç bir aidiyyatı yoxdur, könlümdən keçən bir iş oldu və etdim. O işi görməkdə əsas məqsədim imkanlı adamların belə günlərdə imkansız, az təminatlı ailələri unutmamlarına və onlara əllərindən gələn yardımı etmələrinə diqqət yönəltmək idi.

Mən bunu sürpriz adlandırmazdım, ancaq öz vəzifəmi deputat kimi yerinə yetirib Qardabanimizin bir sıra problemləri üzərində işləyib həll etmək üçün müəyyən ideyalarım, planlarım var və yaxın bir zamanda şəhərlərimizdə, kəndlərimizdə bunun hiss olunacağını düşünürəm.

***H. B. – Hörmətli deputat, parlamentin ölkə Konstitusiyasına bir sıra əlavələr və dəyişikliklər etməsi gözlənilir. Artıq parlamentin spikeri İrakli Kobaxidzenin sədrliyi ilə Konstitusiya Komissiyasının fəaliyyətə başlaması da bəlli bir faktdır. Ancaq Gürcüstanın Əsas Qanununa ediləcək dəyişikliklər cəmiyyətdə bir-birinə zidd fikirlərin meydana çıxmasına səbəb olub. Əslində nə baş verir, Konstitusiyamızda hansı dəyişikliklər gözlənilir?***

S. M. – Artıq bildirdiyim kimi Konstitusiya Komissiyasının üzvlərindən biri də mənəm. Əks fikirlər hər işdə olur, bu normaldır, ancaq hər hansı bir dəyişiklik olsa bu hər bir vətəndaş üçün sərfəli, hər vətəndaşa uyğun dəyişiklik olacaq. Konstitusiya komissiyasının əsas məqsədlərindən biri də hər bir vətəndaşın marağını nəzərə alaraq çalışmasıdır. Bildiyiniz kimi Konstitusiya Komissyasına təcrübəli ekspertlər cəlb olunub, komissiyanın işinin daha effektli olması üçün həmçinin Venesiya komissyası ilə də mütəmadi olaraq fikir mübadiləsi aparılır. Konstitusiya Komissiyası cəmiyyətin bütün təbəqələrinin fikir və təkliflərini nəzərə almağa, konsensusun əldə olunmasına çalışır. Bu məqsədlə komissiyanın işində parlament çoxluğunun, müxalifətin nümayəndələri ilə yanaşı qeyri-hökumət təşkilatlarının nümayəndələri də təmsil olunublar.

***H. B. – Etnik azlıqlarla bağlı hansı müsbət proseslərin getməsini proqnozlaşdırmaq olar? Parlamentin gündəliyində bu məsələ ilə bağlı hər hansı bir layihə mövcuddurmu? Mümkünsə bu barədə məlumat verin.***

S. M. – Etnik azlıqlarla bağlı sadəcə parlament deyil, bir sıra nazirliklərin də yeni proqramları var, işlərin bəziləri artıq həyata keçirilir, bəziləri də planlaşdırılaraq yaxın bir vaxtda həyata keçiriləcək. Qeyd etmək istərdim ki, Gürcüstanda yaşıyan hər millətin nümayəndələri bu proqramlardan yararlanacaqlar. Bundan başqa, millətimizin maraqlarıyla bağlı parlamentə müxtəlif layihələr təqdim etməyi planlaşdırıram. Allahın izniylə parlament tribunasından da öz fikirlərimi bildirəcəm, hər biriniz də bunun şahidi olacaqsınız.

***H. B. – Savalan bəy, yüzilliklər ərzində azərbaycanlılarla gürcülər bir-birlərinin sevinclərini bölüşmüş, dərdlərinə şərik olmuşlar. Gürcüstan dövlətçiliyinin qorunmasında bir toplum kimi azərbaycanlıların xidmətləri danılmazdır. Tarixin müxtəlif dönəmlərində ümumi düşmənə qarşı bu xalqların çiyin-çiyinə mübarizə aparması, bir-birinə dayaq olması haqqında çoxsaylı faktlar mövcuddur. Azərbaycanlıların gürcü cəmiyyətinə inteqrasiya olunmasının çətinlikləri təkcə gürcü dilini bilməməklə̈mi bağlıdır, yoxsa burada bizim bilmədiyimiz başqa nələrsə var?***

S. M. – Mən hər dəfə demişəm ki, bizim ən böyük problemimiz gürcü dili ilə bağlıdır. Biz gürcü dilini bilsək, bizə manə olan başqa bir şey yoxdur. Xalqımızın inteqrasiya olması üçün bir sıra proqramlar var. Ən əsası odur ki, ölkədə bizə ikinci dərəcəli millət kimi baxan yoxdur, sadəcə gürcü dilini bilmədiyimizə görə, biz ölkənin siyasi və ictimai proseslərindən qıraqda qalırıq. İnteqrasiya dediyimiz də məhz o proseslərin içində olmaqdır. Biz Gürcüstanın ayrılmaz bir hissəsiyik, Gürcüstan bizim vətənimizdir. Gürcüstanın ərazi bütövlüyü uğrunda cox igidlərimiz vuruşub və şəhid olanlar olub. Gürcüstan Meraba, Levana, Giorgiyə, Davidə necə aiddirsə, eləcə də bizə məxsusdur. Mənim xalqımızın gürcü dilini öyrənməsi üçün proqram və layihələr üzərində çalışmaq üçün ideyalarım, planlarım var və düşünürəm ki, bunun problemin həll olunmasına böyük faydası toxunacaq. Sevindirici haldır ki, hər il tələbələrimizin sayı artır, bu da onu görsədir ki, gürcü dilini öyrənmək üçün gənclərimizdə maraq var. Ümidvaram ki, yetişməkdə olan gənc və savadlı gələcək nəsil sayəsində yaxın gələcəkdə indiyədək üzləşdiyimiz bir sıra problemlərdən azad olacayıq. Bizlər də öz növbəmizdə üzərimizə düşən işlərimizi görməliyik və dövlətdən tələb etməliyik.

***H. B. – Parlamentdə təmsilçisi olduğununuz Qardabani bölgəsi haqqında nə kimi yeniliklər gözlənilir? Bildiyiniz kimi bölgənin ən əsas problemi torpaq məsələsidir. Bu məsələnin həlli üçün hər hansı bir çalışma varmı?***

S M. – Torpaq problemləri Gürcüstanün digər bölgələrində olduğu kimi Qardabani rayonunda da mövcuddur.Bildiyiniz kimi yüzlərlər hektar torpağın ehalinin xəbəri olmadan satıması və digər problemlər mövcuddur. Düşünürəm ki, bu məsələlər, bu cur problemlər köklü şəkildə araşdırılmalı və lazım olan müvafiq idarələr məlumatlandırılmalıdır.Bu problemlə bağlı təbii ki, məşğul olacağıq.Ümumiyyətlə sakinlərimizi narahat edən hər bir problemdə rayon sakinlərimizin tam şəkildə maraqlarını qorumağa çalışacam

***H. B. – Hörmətli deputat, bizdən gözlədiyiniz, amma bizim vermədiyimiz hansısa bir sual varmı? Əgər belə bir sual gözləyirdinizsə, xahiş edirik, imkan daxilində bu sualı özünüz verib, özünüz də cavablandırasınız. İnanırıq ki, bu üslub oxucularımızın da ürəyincə olacaq.***

S. M. – Siz peşəkar bir qəzetsiniz ve işinizi bilən peşəkar jurnalistlərsiniz, düşünürəm ki, oxucuları maraqlandıran, onları düşündürən bütün sualları verdiniz, mən də öz növbəmdə bu sualları cavablandırmağa çalışdım. Çox sağ olun.

Söhbətləşdi: Hacı BƏKİROĞLU

## YERLİ İDARƏETMƏ ORQANLARI SEÇKİLƏRİNƏ 40 MİLYON LARİYƏDƏK PUL XƏRCLƏNƏCƏK

Gürcüstanın Mərkəzi Seçki Komissiyası (MSK) 2017-ci ilin payızında yerli idarəetmə orqanlarına seçkilərin keçirilməsinə və təşkilinə təxminən 40 milyon lari xərcləyəcək.

Artıq bu məbləğ dövlət büdcəsindən ayırılıb. Reqlamentə görə MSK ümumilikdə 39 011 899 lari alıb. Xərclər aşağıdakı qaydada bölünəcək:

Seçkilərin keçirilməsi üzrə tədbirlərə – 28 milyon 120 min lari;

Seçki komissiyalarının əməkdaşları üçün treninqlərə – 1 milyon 30 min lari;

Seçki subyektlərinin televiziya reklamına – 2 milyon 242 min lari;

Seçki subyektlərinin maliyyələşdirilməsinə – 7 milyon 619 min lari.

## PARLAMENTİN PAYTAXTA KÖÇÜRÜLMƏSİ MƏSƏLƏSİ YENİDƏN GÜNDƏMDƏDİR

Parlament çoxluğunun üzvü Sofio Kiladze Konstitusiya Komissiyasının heç bir məsələ barədə, o cümlədən də Gürcüstan parlamentinin Kutaisidən Tbilisiyə köçürülməsinə dair hələ qərar qəbul etmədiyini bildirib.

Kiladze indiki mərhələdə komissiyanın iş rejimində olduğunu və yalnız müəyyən məsələlərə dair ilkin consensus əldə olunduğunu qeyd edib. O, qəti qərarın son layihə üzrə qəbul ediləcəyini vurğulayıb.

Sofio Kiladze deyib: "Düşünürəm ki, indiki mərhələdə hər hansı bəyanat vermək çox tezdir. Hələlik biz hamımız işləyirik. Bütün məsələlərə dair ilkin razılaşma əldə olunub".

Onun sözlərinə görə, parlament çoxluğuna parlamenti Kutaisidə saxlamaq, yoxsa Tbilisiyə köçürmək məsələsini yoxlamaq üçün vaxt lazımdır.

Kiladze Gürcüstanın Avroatlantik niyyətinə dair Konstitusiyanın preambulasında qeyd edilib, edilməyəcəyi məsələsinə də aydınlıq gətirib. O, bu məsələ ilə bağlı hələ qərar qəbul olunmadığını söyləyib.



## RUSİYA-TÜRKİYƏ YAXINLAŞMASI FONUNDA DAĞLIQ QARABAĞ MƏSƏLƏSİNİN HƏLLİ YOLLARI

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Rusiya Federasiyası xarici işlər nazirliyi ilin yekununa dair keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağ problemi ilə əlaqədar qərəzli açıqlama verdi. Dağlıq Qarabağ probleminin Azərbaycan Respublikasının daxili işi olmadığını vurğulayan Rusiya diplomatiyasının başçısı S. Lavrov Azərbaycanın ərazi bütövlüyü və süverenliyini təhdid etməkdədir. Uzun illərdir ki, "ərəb saçı"na dönmüş münaqişəyə Lavrovun bu cür qiymət verməsi, əslində Rusiyanın Azərbaycana qarşı yürütdüyü siyasətin təzahürüdür. Rus diplomatiyasının ən önəmli personası daha sonra vurğulayır ki, adıgedən münaqişənin həll olunmasında Minsk qrupu həmsədrləri arasında hələ də fikir ayrılıqları mövcuddur. Həqiqət isə ondan ibarətdir ki, məhz Moskva problemin həll edilməsində istəkli deyil. Çünki, Azərbaycan nə ABŞ, nə də Fransanın xarici siyasətinin "olmazsa olmaz"ı deyil. Mövzu isə Azərbaycanın ərazi bütövlüyüdür.**

Ölkə ərazisinin separatçı, işğalçı və kriminal elementlərdən təmizlənməsi isə bütün dünya dövlətləri kimi, rəsmi Bakının da süveren hüququdur. Üstəlik, qeyd edilən məqam BMT nizamnaməsinin bir tərkib hissəsidir. Dağlıq Qarabağ münaqişəsinin həllində ən önəmli postulat isə elə həmin BMT Təhlükəsizlik Şurası tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin qeyd-şərtsiz təmizlənməsinə dair qətnamələr olmalıdır. Lakin, görünən odur ki, Rusiya başda olmaqla Minsk qrupu həmsədrləri reallığı görməzdən gəlir və erməni obrazlı maskalarla cildən-cildə girirlər. Münaqişənin düyününün kilid açarının isə Kremlin "cib"ində olması danılmaz faktdır. Lavrovun bu tip bəyanatlarla Dağlıq Qarabağ problemi ətrafında "var-gəl" etməsinin əsl səbəbi münaqişə zonasında "status-kvo"nu qorumaqla Cənubi Qafqaz regionunu Rusiyanın təsir və təzyiqi altinda saxlamaqdır. Digər tərəfdən, Rusiyanın xarici işlər idarəsi başçısının etnik və genetik mənsubiyyətini də nəzərə alsaq mənzərənin bundan fərqli olmayacağını güman etmək çətin deyil.

Şübhəsiz ki, Ermənistan Qafqaz regionunda Moskvanın ən etibarlı müttəfiqidir. Son zamanlar Rusiya ilə Türkiyə arasında münasibətlərin normallaşması Dağlıq Qarabağ münaqişəsində "Qordi düyünü"nün çözülməsi üçün nikbin fikirlər söyləməyə əsas verirdi. Lakin, qısa zaman içərisində Moskva və Ankaranın bir-birlərinin qarşılıqlı etibarını qazanmaları haqqında fikir söyləmək hələ tezdir. Tərəflər hər nə qədər Suriya məsələsində eyni cəbhədən çıxış etsələr də, bəzi digər məqamlarda Rusiya və Türkiyə arasında mövqe fərqləri mövcuddur. Bunu rəsmi olaraq Türkiyənin xarici işlər naziri M. Çavuşoğlu da səsləndirmişdi. Üstəlik, rus-türk münasibətlərinin tarixi də belə bir fikir söyləməyə əsas verir. Qafqaz məsələsində qeyd olunan ölkələrin siyasəti daim ziddiyyət təşkil etmişdir. Lakin, hal-hazırda Moskva ilə Ankara arasında yaşanan tarixi yaxınlaşma prespektivdə bu münasibətlərin müsbət inkişafına zəmin yaratmaqdadır. Şübhəsiz ki, Rusiya-Türkiyə əlaqələrinin dərinləşməsi Dağlıq Qarabağ münaqışəsinin ədalət və Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinə böyük töhfə vermiş olacaqdır. Amma, indiki zaman çərçivəsində belə bir fikrin gerçəkləşməsinə ümid etmək sadəlövlük olardı. Cünki, yuxarıda da vurğulandığı kimi, tərəflər qarşılıqlı etibar qazanmalıdırlar. İkinci bir tərəfdən, Kreml yaxşı başa düşür ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunarsa, Bakı Ankaranın yanında qərar tutacaq və Qafqazda Türkiyənin rolu artacaqdır. Ona görə də Dağlıq Qarabağ probleminin dondurulması Rusiyanın regionda qalıcı olmasının ömrünü uzatmış olur.

**Bakının həm Rusiya ilə münasibətlərinin çoxşaxəliliyi, həm də beynəlxalq institutlar qarşısında məsələnin sərt qoyuluşu Dağlıq Qarabağ münaqişəsinin ədalət və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsində mühüm rol oynayacaqdır.**

## KRIM TATARLARI DÜNYA ÖLKƏLƏRİNİ 1944-CÜ İL DEPORTASİYASINI SOYQIRIMI KİMİ TANIMAĞA ÇAĞIRIB

Krım tatarlarının Ümumdünya Konqresi müxtəlif ölkə hökumətlərinə Krım tatarlarının 1944-cü il deportasiyasını soyqırımı kimi tanımağa səsləyən müraciət ünvanlayıb. Bu barədə "Krım xəbərləri" nəşri məlumat yayıb.

"Krım Tatarlarının Ümumdünya Konqresinin müraciətində Krım tatarlarının 1944-cü il kütləvi deportasiyası bu xalqın tamamilə məhv edilməsi məqsədilə həyata keçirilən cinayət kimi təsnif edilir, hansı ki, beynəlxalq hüquqa uyğun olaraq, soyqırımı hesab olunur. Beləliklə, Konqres müraciətin göndərildiyi dövlətlərin hökumətlərindən 1944-cü il hadisələrini soyqırımı aktı kimi tanımağı tələb edir" – xəbərdə qeyd olunur.

Müraciət 300-ə yaxın Avropa, Amerika, Latın Amerikası, Afrika və BMT-nin üzv dövlətlərinə və BMT-də daimi nümayəndəliyi olmayan xalqlara göndərilib.

12 noyabr 2015-ci il tarixində Ukrayna Krım tatarlarının 18 may 1944-cü il deportasiyasını soyqırımı kimi tanıyıb. Bu barədə müraciətdə də xatırladılır.

## MƏŞHUR ŞİRKƏTLƏR TRAPMA ETIRAZ EDİRLƏR



ABŞ-ın məşhur kofe brendi "Starbucks" Donald Trampın qaçqınlar və müsəlman ölkəsi vətəndaşları ilə bağlı verdiyi fərmana etiraz edib.

Etiraza "Google", "Airbnb", "Uber" kimi digər məşhur şirkətlər də qoşulub. Onlar bu qərarı pislədiklərini açıqlayıblar və bundan sonra da susmayacaqlarını dilə gətiriblər.

Həmçinin "Starbucks" şirkəti təmsil olunduğu 75 ölkədə 5 il ərzində 10 000 qaçqını işlə təmin edəcəyini açılqlayıb.

"Airbnb" qadağaya görə ABŞ-a daxil ola bilməyənləri qalmaq üçün pulsuz yerlə təmin edəcəyini deyib.

"Google" şirkəti isə işçilərdən və şirkətdən toplanan 4 milyon dollar vəsaiti qurumlara yardım kampaniyası üçün verəcək.

"Uber" şirkəti səyahətdən geri ABŞ-a dönə bilməyənlərin hüquqlarını müdafiə üçün 3 milyon dollar vəsait ayırıb.

## DÖVLƏT DUMASI KEÇMİŞ SSRİ VƏTƏNDAŞLARI ÜÇÜN RUS «QRİN KART»I HAZIRLAYIR

Dövlət Duması keçmiş Sovet İttifaqı vətəndaşlarına Amerika qrin kartlarının analoqu olan xüsusi "Rus kartı" verməyi düşünür.

Bu sənədi alanlara ali təhsil müəssisələrində təhsil almaqdan tutmuş ictimai nəqliyyatda gedişə qədər bir sıra güzəşt hüququ verilməsi nəzərdə tutulur. Dumada belə hesab edirlər ki, bu, Sovet İttifaqının dağılmasından sonra xaricdə qalmış rusdilli vətəndaşların birləşməsinə yardım edəcək. Əgər qanun layihəsi bəyənilərsə, Rusiya kartları 2018-ci ilin yanvarın 1-dən veriləcək.

Qanun layihəsinə görə, rus qrin kartlarına bir sıra şərtləri yerinə yetirən digər ölkə vətəndaşları sahib ola biləcəklər. Bunun üçün SSRİ vətəndaşları ilə (ata, ana, nənə, baba) birbaşa qohumluğun və ya özünün əvvəllər SSRİ vətəndaşlığının olmasını sübut etmək lazım gələcək. Digər şərt rus dilini baza səviyyəsində bilmək tələbidir. Başqa bir şərt isə rus dövlətinə, xalqına və onun təhlükəsizliyi əleyhinə fəaliyyət (xüsusilə jurnalistika) göstərməməkdir. Rus qrin kartını almaq üçün digər məcburi tələb Rusiya vətəndaşlığına malik olmamaqdır.

## TRAMP RUSİYAYA QARŞI SANKSİYALARDAN BƏHS EDİB

Rusiyaya qarşı sanksiyaların ləğvindən danışmaq tezdir.

Bunu ABŞ prezidenti Donald Tramp Böyük Britaniyanın baş naziri Tereza Mey ilə keçirdiyi birgə mətbuat konfransında bəyan edib.

"Rusiyaya qarşı sanksiyaların ləğvindən danışmaq hələ tezdir" – deyə D.Tramp bildirib.

Bununla belə o, bütün ölkələrlə yaxşı münasibətlər yaratmaq istədiyini, lakin bunun mümkünsüzlüyünü anladığını bildirib.

Tereza Mey, öz növbəsində qeyd edib ki, Ukrayna üzrə Minsk razılaşmaları yerinə yetirilməyənədək



Rusiyaya qarşı tətbiq edilən sanksiyalar qüvvədə qalmalıdır.

## RAKETLƏRİ KOSMOSDA VURA BİLƏN KOMPLEKSLƏR İSRAİL ORDUSUNUN İSTİFADƏSİNƏ VERİLİB

Ballistik raketləri kosmosda vurmağa qadir olan "Xets-3" komplekslər İsrail ordusunun istifadəsinə verilib.

Bu barədə İsrail Müdafiə Nazirliyinə istinadən "RİA Novosti" məlumat verir

Məlumata görə, "Xets-3" raket əleyhinə müdafiə sistemi İsrail Müdafiə Nazirliyi və ABŞ Raket Əleyhinə Müdafiə Agentliyi tərəfindən birgə istehsal olunub və artıq İsrail Hərbi-Hava Qüvvələrinin arsenalına daxil edilib.

Qeyd edək ki, "Xets-3" raket əleyhinə müdafiə sistemi ötən il uğurla sınaqdan keçirilib.

## ZİMBABVE XARİCİ BORCUNU FİLLƏRLƏ ÖDƏYƏCƏK

Zimbabve hökuməti xarici borcunu vəhşi heyvanlarla, o cümlədən də fillərlə ödəmək qərarına gəlib. Ölkə valyuta ehtiyatlarına malik deyil. İnflyasiya ucbatından milli valyuta da ləğv olunub. Ölkədə ABŞ dolları, CAR randı, habelə Çin yuanı tədavüldədir.

Məlumata görə, "etibarlı valyutadan" istifadə ideyasını 92 yaşlı prezident Roberta Muqabenin arvadı yada salıb. Çinə olan xarici borcun müqabilində Zimbabve 130 fil və 50 şir göndərməyi planlaşdırıb.

Otuz beş cavan filin ilk dəstəsi Boeing 747 təyyarəsi ilə Şanxaya yola salınıb. Səfər zamanı fillərdən biri stresdən ölüb. Təbiət qoruyucuları fillərin gələcək taleyindən narahatdırlar. Fillər Çində turizm məqsədilə istifadə olunan rezervasiyalarda yaşayacaqlar. Bundan əlavə heyvanlar qiymətli fil sümüyü üzündən brakonyerlərin qurbanına da çevrilə bilərlər.

Zimbabvenin təbiət parklarında otuz altı minə yaxın fil yaşayır. Heyvan növlərinin qorunmasına dair Vaşinqton sazişi canlı fillərin ticarətini qadağan etmir. Yalnız onların dişləri qoruma altındadır.

## MƏNFƏƏT VERGİSİNİN «ESTON» MODELİNİN XÜSUSİYYƏTLƏRİ

***Gürcüstan baş nazirinin təşəbbüsü ilə Gürcüstan hökuməti 2016-ci ildə mənfəət vergisinin Eston modeli uzərində işləməyə başladı. Öncədən bu modelin 2016-cı ilin 1 iyun tarixində qüvvəyə minəcəyi gözlənilirdi. Ancaq biznes nümayəndələrilə keçirilən görüşlərdən sonra onların fikirlərini nəzərə alaraq modelin işə salınma tarixi dəyişdirildi. Yeni model artıq 2017- ci ilin 1 yanvarından qüvvədədir, haqqında bəhs edilən modelin gürcüstanın vergi sistemində tətbİq olunmasının əsas məqsədi Gürcüstanda orta və kiçik biznesin inkişafina dəstək olmaqdır. Bu modelin tətbiqindən sonra Gürcüstan hökumətinin büdcə gəlirlərinin mənfəət vergisi bölümündə 400-500 miliyon civarında azalma baş verəcək. Hökumət qeyd olunan büdcə gəlirinin azalmasını administrativ xərclərin azaldılması və aksiz vergisinin artlırılması ilə balanslaşdırmaq üzərində işləyir. Mənfəət vergisinin yeni, " eston" modeli barəsində vacib olan bəzi sualarıcavablandırmağa çalışaq.***

1. Mənfəət vergisinin yeni modeli haqqında?

Yuxarda qeyd etdiyimiz kimi mənfəət vergisinin yeni "Eston" modeli huquqi şəxslərin bizneslərinin genişləndirmilməsinə şərait yaradır. Yeni modelə əsasən vergi ödəyicisi mənfəət vergisi ödəmir:

əgər onun tərəfindən əldə edilən xalis mənfəət sahibkarlarlar arasında bölünmürsə və ya iqtisadi fəaliyyətlə baglı olmayan xərclər gəlirden çıxılmırsa.

2. Mənfəət vergisinin yeni modelinə görə mənfəət vergisinin ödəyiciləri kimlərdir?

Gürcüstan vergi məcəlləsi ilə müəyyən olunmuş rezident müəssisələr.

Gürcüsatan ərazisində daimi nümayəndəliyi vasitəsi ilə fəaliyyət göstərən və ya Gürcüstandakı mənbəydən gəlir əldə edən qeyri-rezident müəssisələr.

3. Mənfəət vergisinin yeni modeli kimlərə aid edilmir?

xeyriyyə təşkilatları, qeyri-kommersiya təşkilatları;

neft və qaz haqqında Gürcüstan qanunu ilə müəyyən edilmiş müqavilələrdən irəli gələrək neft və qaz fəaliyyətindən mənfəət əldə edən şəxslər;

Gürcüstandakı mənbədən əldə etdikləri gəlir onların daimi nümayəndəliklərinə aid olmayan qeyri-rezident müəssisələr;

Sistemli totalizator oyunları təşkil edən şəxslər.

2019-cu ilin 1 yanvarına qədər kommersiya bankları, maliyyə təşkilatları, sığorta şirkətləri, mikro-maliyyə təşkilatları və lombardlar.

Fərdi sahibkarlar;

Mikrobiznes statuslu fiziki şəxslər;

Kiçik biznes statuslu fiziki şəxslər;

Əvvəlcədən müəyyən edilmiş vergi ödəyicisi.

4. Mənfəət vergisinin yeni modelinə görə vergi tutma obyekti:

Bölünən mənfəət hüquqi şəxsin öz səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi ( dividend şəklində pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş).

hüquqi səxsin kommersiya fəaliyyətilə baglı olmayan xərclər və ya başqa ödənişlər, eləcə də xərcləndiyini sənədlə təsdiq edə bilməyən xərclər və ya xərcin cəkilməsi mənfəətlə, gəlirlə bağlı deyil (GVM 98-ci maddə).

Təmənnasız olaraq mallın satışı/xidmətin göstərilməsi.

Gürcüstan vergi məcəlləsi ilə məhdudlandırılmış normadan artıq nümayəndəlik xərcləri.

5. Mənfəət vergisinin yeni modelinə görə vergi dərəcəsi nə qədərdir?

Mənfəət vergisinin yeni modelinə görə vergi dərəcəsi 15 faizdir.

6. Mənfəət vergisinin yeni modelinə görə verginin hesabat dövrü?

Mənfəət vergisinin yeni modelinə görə verginin hesabat dövrü təqvim ayıdır.

7. Mənfəət vergisinin yeni modelinə görə mənfəət vergisinin aylıq bəyannaməsi hansı müddətdə təqdim olunur və nəcə ödənilir?

Mənfəət vergisinin yeni modelinə görə mənfəət vergisinin aylıq bəyannaməsi vergi ödəyicisi tərəfindən vergi orqanına hər ay təqdim olunur ( elektron şəkildə). Növbəti ayın 15-ə qədər eyni muddətdə verginin ödənilməsi baş verməlidir.

Misal: 2017-ci ilin yanvar ayının vergi deklarasiyasi fevral ayinin 15-ə kimi təqdim olunmalıdır və ödənməlidir.

8. Mənfəət vergisinin yeni modelinə əsasən vergi ödəyiciləri avans şəklində əvvəlcədən mənfəət vergisi ödəyəcəklərmi?

Mənfəət vergisinin yeni modeli ilə vergi ödəyəcək hüquqi şəxslər avans şəklində ödənilən vergidən azaddırlar.

Misal: hüquqi şəxslərin 2016-cı ilin ilik vergi deklarasiyasını 2017-ci ilin aprel ayının birinə qədər təqdim etmələrinə baxmayaraq, onlar artıq yeni modelin istifadəçiləri sayılır və 2017-ci ildə öncədən avans şəklində vergi ödəmirlər.

Göstərilən qayda 2019-cu ilin 1 yanvarına qədər kommersiya bankları, maliyyə təşkilatları, sığorta şirkətlərinə, mikro-maliyyə təşkilatlarına və lombardlara aid deyil.

9. 2017-ci ilin 1 yanvarına qədər əldə edilmiş xalis mənfəətin bölünməsi ( hansına görə ki, vergi ödəyicisi artıq mənfəət vergisini ödəyib) verginin ikiqat ödənilməsinə gətirib cıxarmır ki?

Əgər rezident hüquqi şəxs 2008-ci ilin 1 yanvarından 2017-ci ilin 1 yanvarına qədər əldə edilmiş xalis mənfəətdən dividend bölüşdürübsə vergi ödəyicisinin hüququ var bu müddətdə ucota alınmış və ödənilmiş mənfəət vergisi məbləgi ilə yeni ödəniləsi vergini azaltsın və bu məbləg GVM 98 maddəsində nəzərdə tutulan mənfəət vergisindən artıq olmamalıdır.

Dividend şəklində bölünəcək məbləg

2008-ci ilin 1 yanvarından 2017-ci ilin 1 yanvarına qədər ucota alınmış və ödənilmiş mənfəət vergisi məbləği,

2008-ci ilin 1 yanvarından 2017-ci ilin 1 yanvarına qədər əldə edilmiş xalis mənfəət,

2008-ci ilin 1 yanvarından 2017-cu ilin 1 yanvarına qədər əldə edilmiş xalis mənfəətdən səhmdarlar üçün verilmiş muəssisənin qiymətli kagızının/hissəsinin məbləgi.

## GÜRCÜSTANDAN QIZIL VƏ MİS İXRACI ARTIB

2016-cı ildə Gürcüstan 2015-ci illə müqayisədə qızıl ixracını 16,1% və ya 3,6 tonadək, mis filizi və konsentratı ixracını isə 18,2% və ya 283,3 min tona qədər artırıb. Məlumatı Milli Statistika Xidməti verib.




Buna baxmayaraq, dördüncü kvartalda 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə qızıl ixracında 0,8 ton, yəni 11,1%, mis filizi və mis konsentratı ixracında isə 67,5 min ton, yəni 8% azalma qeydə alınıb.

Ststistika xidmətinin məlumatına görə, 2016-cı ildə bu məhsulların ixracının ümumi həcmi pulla ifadə edildikdə 392,8 milyon dollar təşkil edib ki, bu da 18,1% artım deməkdir.

## YETİM GÜRCÜ (boheme)

İBRAHİMXƏLİL



**"Bohema"nın nə olduğunu bilmədiyim illərdə (təəssüf ki, bu söz 1975-ci ildə "Elm" nəşriyyatının buraxdığı "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nə daxil edilməmişdi) unudulmaz müəllimim İsrail Mustafayev məndən xahiş elədi ki, mümkünsə, İosif Qrişaşvilinin 1977-ci ildə Tbilisinin "Merani" nəşriyyatında işıq üzü görmüş "Köhnə Tiflisin ədəbi boheması" adlı kitabını tapıb gətirim. Bu tapşırığı yarıtmadım: indinin özündə də xəcalətliyəm...**

İsrail müəllim arada Provans trubadurları ilə əlaqədar Tiflisli Yetim Gürcüdən də söz açmışdı və heç kəsin gözləmədiyi halda tələbələrdən biri soruşmuşdu:

– Müəllim, məgər gürcülərin də yetimi olur?

O vaxtlar gürcülər haqqında belə heyran rabitəli rəvayətlər də gəzirdi ki, bəs deməzsənmi, guya onların dilənçisi, yetimi, biçarəsi ("Beçara"-"Biçarə" təxəllüslü gürcü aşığı Vasili Beriaşvili haqqında da sonralar oxudum) ola bilməz. Onda Gürcüstan paytaxtı firavan həyat səviyyəsi baxımından az qala Kampanellanın əfsanəvi "Günəş şəhəri" boyda xoş səda çıxarmışdı.

Sən demə, köhnə Tiflisin ədəbi boheması onun davamlı maddi imkanı olmayan və zəmanənin sərsəri, sərgərdan sırasına qatdığı şairlər, rəssamlar, aktyorlar imiş. Baxmayaraq ki, "bohema" sözünü ilk dəfə "dövriyyə"yə buraxan fransız yazıçısı Morje bu ad altında Parisin məşhur Latın məhəlləsində yaşayan və arada-sırada da qaraçılar qədər aşağılanan "xarici" tələbələri nəzərdə tuturmuş...

...Yetim Gürcü (1875 – 1940) qədim-qayım Tiflisin bütün taxça-boğça tarixi ərzində onun ən görkəmli nəğməkarı-ozanı olub. Faciəli taleli bu ustad bütün Tiflislilərin – gürcülərin, azərbaycanlıların, ermənilərin, aysorların, yunanların rəngarəngliyini, cizgilərini içinə-çölünə o qədər yoğura-yoğura hopdurub ki, indinin özündə də hərə onu öz adına çıxır.

Misilləmə misal üçün, Mirzə Levon Məlik Şahnazaryan iddia edir ki, bu Yetim Gürcü əslində erməni əsilli Arutyun Ağacanovdur. Yetim Gürcü haqqında həzin nəğmə qoşan və qoca dünyanın faniliyini də musiqisinə qatan Zəfər Təkgümüş isə buyurur ki, xalq nəğməkarının babası Trabzon tərəflərdəndir, Osmanlı dövründə müsəlmanlığı qəbul etmiş lazlardandır.

Bəlkə də adi yetim olsaydı hərə onu özgə adına çıxar, bir yetimdoyduran da bağışlayardılar. Axı yetimə "can-can" deyən çox olur...

Kim bilir, Yetim Gürcünün vaxtında Vahid Vəhdət dünyasında neçə yetim, neçə də yetim malı yeyən var imiş? Yaradanın yetim malını yeyənlərə xəbərdarlığına baxanlar o qədərmi çox olub ki? Məgər yetim malını yeməklə "qarınlarına cəhənnəm odu atanlar" zülmkarlıqlarının fərqindəmi idilər? Yetim Gürcü bəlkə də elə bu üzdən belə yazırdı:

Başına vicdanın papağını qoy, –
Ey insan, təkcə bu papağı daşı...

Əsl adı Yetim İbrahim oğlu Dabğişvili olan bu xalq nəğməkarının həyatı-yaradıcılığı bu günümüzə və sabahımıza sanki bir melodramatik mesaj təsiri bağışlayır: belə ki, hansı məmləkət olursa-olsun – təbii ki, Gürcüstan və Azərbaycan da daxil olmaqla – həm öz yetimlərinə, yoxsullarına, işsizlərinə, həm də yetimlik, yoxsulluq təkcə təxəllüslərində, ləqəblərində deyil, ağrıyan həyatlarında da hər an özünü göstərən söz adamlarına, rəssamlara, aktyorlara sahib çıxmalıdır! Bəzilərində belə təkəmseyrək təəssürat da yarana bilər ki, bəlkə mən Yetim Gürcünün kimliyindəki "İbrahim oğlu" soyadına, adaşlığa-qardaşlığa tərəf çıxıb təəssübkeşlik edirəm. Qətiyyən! Sadəcə olaraq məhz Yetim Gürcü misallı yetimlərin sayəsində vətənin özü də yetimlikdən qurtarır.

...Kür çayının Meydan sahilində Yetim Gürcünün nəğmələrini xatırladan, içində-çölündə həm də digər yetimlərin hesab-kitab hüquqlarından xəbər verən abidəsi qoyulub. Deyilənlərə görə, yetim malını yeyənləri hələ o abidənin həndəvərlərində görən olmayıb. Bilmirəm...

P.S.

Unudulmaz Fikrət Sadığın "Halbuki" adlı kitabına oğlu Orxan ön söz yazıb. Bu sitat da oradandır: "Fikrət Sadıq şair əxlaqındadır. O heç vaxt adam və bazar malı satmayıb". Hər dəfə Tiflisdə Yetim Gürcünün abidəsi yanında Orxanın atası haqqında yazdığını xatırlayıram. Çünki Yetim Gürcü də şair əxlaqında olub və "adam və bazar malı" satmayıb.

**Və hətta Tiflis boyda şahanə şəhər də Yetim Gürcüsüz (və bohemasız) çox yetim-yesir görünərdi...**

# CƏMİYYƏTİMİZİN “ÖLÜ” İNVESTİSİYASI



ELNUR XƏMMƏDOV

***Müzakirə olunan mövzu real faktlara əsaslanır, heç bir xəyali fikirlərdən qaynaqlanmır. Çoxlarına qəribə gələ bilər, amma düzgün oxudunuz: cəmiyyətimizin “ölü” investisiyası. Əvvəlcə bu terminin nə olduğunu aydınlaşdıraq. “Ölü” investisiyası bizim dildə desək cəmiyyətimizin rəhmətə gedən ailə üzvlərinə ağla sığmayan miqdarda pul ayırmasıdır. Çoxlarınızda belə bir fikir formalaşacaq ki, indi bu bizə agıl öyrədəcək? Neçə illik adət-ənənələrimizi dəyişəcək? Bəli, düzgün başa düşdünüz. Heç bir dini, məntiqi əsası olmayan fikirlər dəyişdirilməlidir. Mövzunun daha yaxşı nəticə verməsi üçün söhbəti sual-cavab formasında davam etdirməyi uyğun gördüm. Bunun məqsədi veriləcək sualları özünüzün cavablandırmanızdır.***

Bu yazımda üç suala cavab verməyə çalişacam:

1.İslam dininə qulluq edən müsəlman rəhmətə gedən yaxını üçün nə etməlidir?

2.Biz müsəlman olaraq nə edirik?

3.Biz müsəlman olaraq nə edə bilərik?

İslam dinin davamçısı olan biz müsəlmanlar bir dəfə də olsun maraqlanmışıqmı ki, İslam dininə görə rəhmətə gedən biri üçün vacib olan nədir?

İslam dininə görə yas tutmaq 3 gündür. Biz buna əməl etmirik. Doğrudurmu? Bəli.

İslam dininə görə rəhmətə gedən üçün cənazə namazı qılınmalıdır. Biz buna əməl etmirik. Doğrudurmu? Bəli.

İslam dininə görə ehsan rəhmətə gedən birinin ruhu üçün kimsəsizlərə yardım etmək, xəstələrə əl uzatmaq, yas mərasimində açılacaq süfrələrə xərclənən vəsait ilə yetimlərə kimsəsizlərə yardım əli uzatmaqdır. Biz buna əmməl etmirik. Doğrudurmu? Bəli.

Biz müsəlman olaraq nə edirik?

Rəhmətə gedən insan üçün yas tutmaq əvəzinə, artıq ilk gündən yas mərasiminə lazım olan ərzaq, xərclənəcək pullar haqqında düşünməyə başlayırıq. Bir az imkanı zəif olan ailənin vay halına. Yəni bizdə rəhmətə gedənə imkana görə münasibət göstərilir.

Rəhmətə gedən üçün adları keçən yas mərasimləri təşkil edirik.

“Üç” mərasiminin islamla heç bir əlaqəsi yoxdur.

300-400 insan üçün dəm-dəsgahlı süfrənin açılması. Süfrədə olan yeməklərin siyahısı.

Ət, dovğa, həlva, şirniyyatlar, mövsümünə görə dəyişən meyvələr, tərəvəzlər. Bütün bunlar ev sahibinin imkanınan görə dəyişir. Bu mərasimə bir ətək xərc gedir.

El arasında “adna axşamları” adlanan “cümə axşamları”nın islamla heç bir əlaqəsi yoxdur, rəhmətə gedənin adı anılıb quran oxunmalıdır. Bizlərdə isə dəbdəbəli süfrələr açılır. Nəzərə alsaq ki, bu mərasim 4-5 həftə davam edir və yenə də bir ətək xərc.

“Qırx” mərasiminin də islamla heç bir əlaqəsi yoxdur. Eyni süfrələr, eyni xərclər.

“Əlli iki”nin də islamla heç bir əlaqəsi yoxdur. Yenə eyni mənzərə, eyni xərc.

“İl dönümü” mərasimimizi də islamla heç nə bağlamır, ailə üzvləri tərəfindən anılması nəzərdə tutulur. Amma biz nə edirik? Yenə eyni süfrəni açıb, eyni xərci çəkirik.

“Məzar daşları”. Ən böyük xərc aparan, ölü üçün yatırılan ən böyük sərmayə. Bu xərc də ev sahibinin imkanınan görə dəyişir, artıb-azalır.

Yuxarıda sadalananlardan belə nəticəyə gəlmək olar ki, biz ölümüzə, əslində dirimizə açılan süfrə ilə, qoyulan bahalı məzar daşı ilə öyünən, ərəb dilində olduğu üçün Quranın mənasını başa düşməyib, sadəcə amin deyən bir cəmiyyətik. Ümidvaram ki, bu fikiri heç kim inkar etməyəcək.

Biz müsəlman olaraq nə edə bilərik?

Heç düşünmürük ki, bizim bu yas mərasimlərində açılan süfrələrə, yersiz xərclərə nə qədər imkansızın ehtiyacı var?

İnsan var bu nemətlərə ehtiyacı var, insan var imkanı olmadığı üçün övladına təhsil verə bilmir,

İnsan var dərman almaq üçün imkanı yoxdur.

Cəmiyyətin bir üzvi olaraq məni bunlar narahat edir və əminəm ki, məni kimi yüzlərlə insanı da narahat edir. Və bunları dəyişmək üçün əlimdən gələni etməyə hazıram, siz də fikirlərinizi bildirin, nəzərə alın ki, bu cəmiyyətdə siz yaşayırsınız, sizin övladlarınız böyüyür.

**Bu məsələləri çox asanlıqla yoluna qoyacaq və bu imkanlara sahib olan insanlar var. Ancaq təəssüflər olsun ki, onlar bu məsələləri görməməzlikdən gəlirlər. Sadəcə, onlar “az aşım, ağrımaz başım” prinsipi ilə yaşayırlar. Nə edək, bir daha təəssüflənməkdən başqa əlimizdən bir iş gəlmir.**

# İNSAN OLMAQ ÜÇÜN NƏ ETMƏLİ ?

***Hər gün daha da çirkinləşən, acizləşən inancların, dəyərlərin itməsini seyr etmək insana ağrı verir. Sevginin yerini mənfəətlərin aldığı, xoşgörüşün yerini dözümsüzlüyə buraxdığı biz zamanda gələcəyi görə bilmədən və keçmişin həsrətiylə yaşamaq insanı necə də üzür.***

Yolda gedərkən, işıqforda gözləyərkən ətrafımdakı insan üzlərinə nəzər salıram. Bir tələş içində, həyat deyilən yarışın ən sürətli yarışçısı olmaq üzrə bütün enerjisiylə qaçan, amma yarışın səbəbini və bitiş noqtəsini bilməyən insan portretləri görürəm.

Nədir bu tələşımız, nəyə və hara yetişməyə çalışırıq?

Ən gəncindən ən yaşlısına qədər üzlərində ümidsizlik, bədbəxtlik ifadələriylə, həyatın onun üçün yazdığı rolu oynamağa çalışan bir oyunçuyuq hamımız. Rolundan məmnun olub ssenaristinə qızmayan nə qədər az oyunçu var ətrafımızda…

Halbuki bir ürəyə ümid olmağı, qarşılıqsız olaraq sevgi təqdim etməyi… sevilməyə layiq olanı sevməyi bacarmalıyıq… Yəni insan olmağı bacarmalıyıq.

Nədir insan olmaq? İnsan olmaq, ürəkli olmaqdır, inandığı dəyərlərin arxasından qorxusuzca getmək, başqalarının qürurunu incitmədən, mən buyam deyə bilməkdir. Mübahisə etmədən müzakirəni, mənfəət güdmədən paylaşmağı, darıxdığında ziyarət etməyi, pisliyi yaxşılıqla qarşılamağı bilməkdir. Qazandığına şükr edərək onunla kifayətlənmək, köməyə ehtiyacı olana kömək etmək, özü üçün yaşayarkən yanındakını da düşünmək, hər halına şükr edə bilməkdir insan olmaq.

Bir çiçəyin açılışında ümid, bir uşağın baxışında sevgi, doğan günəşin istiliyində hüzur tapa bilməkdir insan olmaq.

İnsan olmaq, bir-birini anlamaq deməkdir. Vəhşi həyatda bir-birimizlə döyüşüb qısa həyatlar sürmək yerinə birlik olub birlikdə uzun həyatlar sürməkdir. Uşaqları təbiətə tərk etmək deyil, əksinə onları yetişdirərək və ömür boyu yanında olaraq inkişaf etdirməkdir. Öz təhlükəsizliyini bir kənara buraxıb bunu təmin etməsi üçün başqasına güvənməkdir.

Qısacası, insan olmaq əvvəlcə özünü, sonra ətrafında olan hər şeyi sevmək deməkdir.

Pula hərisliyin adı zənginlik, cinsi pozğunluğun adı isə eşq olmuş zamanımızda.

İnsanın əsl zənginliyi ürəyidir. Ehtiyacı olana əlindəkindən verə bilirsə, o da mənə verər demədən paylaşırsa, ümid, sevgi, bilgi dağıda biləcək qədər ürəyi varsa zəngindir insan.

Sevdiyinin həyatını öz həyatı sayırsa, incitməkdən qorxaraq, içi titrəyərək baxırsa sevdiyinin gözlərinə o zaman bir eşqdir.

Mövlanə Cəlaləddin Rumi nə gözəl ifadə edir:

Gəl də bir-birimizin qədrini biləк, çünki qəflətən ayrılacağıq bir-birimizdən.

Madam ki, inanan inanc sahibinin aynasıdır, madam ki, bu belədir, nə deyə aynadan üz çeviririk?

Ulular dosta can fəda edərlər, itliyi burax, biz də insanıq.

Qul hüvallahları, Qul əuzuları nə deyə bir-birimizə oxuyub üfləmərik?

Döyüşlərin barışa çevriləcəyi, səfalətin yerini rifahın alacağı, günəşin xoşbəxt səhərlərə doğulacağı, sevgilərin göz bəbəklərindəki işıltıda əks olunacağı bir dünyanın “insan”ları ola bilmək diləyiylə…

Hacı BƏKİROĞLU

# 2016-CI İLDƏ 30 174 SÜRÜCÜ AVTOMOBİLİ SƏRXOŞ HALDA İDARƏ ETDİYİNƏ GÖRƏ SÜRÜCÜLÜK HÜQUQUNDAN MƏHRUM EDİLİB



2016-cı ildə Gürcüstanda avtomobili sərxoş halda idarə etdiyinə görə 30174 sürücü sürücülük hüququndan məhrum edilib. Bu barədə DİN-nin müavini Şalva Xutsişvili ambebi.ge saytına müsahibəsində məlumat verib.

O, avtomobillərin sərxoş halda idarə olunmasının yenə də qəzaların üç əsas səbəbindən biri olaraq qaldığını bildirib.

Şalva Xutsişvili cərimə ödəndiyi halda sürücülük vəsiqəsinin qaytarılması məsələsinə də aydınlıq gətirib. O, qeyd edib ki, belə qərarı yalnız patrul polis departamentinin başçısı qəbul edə bilir. Patrul polisinin rəhbəri belə qərarı əgər sürücülük hüququndan məhrum etmə ilk dəfə baş veribsə, o zaman qəbul edir.

Nazir müavininin məlumatına görə, alınmış 30 min sürücülük vəsiqəsindən yalnız 10%-i cərimə ödənildikdən sonra sahiblərinə qaytarılıb.

# TBİLİSİ MERİYASI ELEKTROMOBİL SAHİBLƏRİNƏ DAHA BİR GÜZƏŞT DƏ ETDİ




Tbilisi meriyası elektromobil sahiblərini maşınlarını saxlamağa görə rüsum ödəməkdən azad edib. Meriyada bildiriblər ki, arzu edən elektrik mühərrikli avtomobillərin sahibləri şəhər nəqliyyat xidmətinə ərizə ilə müraciət etməli və şəxsiyyət vəsiqəsinin surətini və nəqliyyat vasitəsinin qeydiyyat sənədini təqdim etməlidirlər. Əgər cavab müsbət olarsa, məlumat “Siti park”a ötürülür. Bundan sonra elektromobil sahibləri dayanacağa görə ödəniş etmirlər.

Yeni maşın saxlama qaydası Tbilisi bələdiyyə yığıncağının qəbul etdiyi qərara əsasən yanvarın 1-dən qüvvəyə minib. Meriyada bildiriblər ki, elektromobillərin dayanacaq rüsumundan azad edilməsi ekoloji cəhətdən təmiz maşınların idxalını həvəsləndirmək üçün atılmış daha bir addımdır. Ötən il məhz bu məqsədlə paytaxtda elektromobillərin enerji ilə yüklənməsi üçün iki məntəqə açılıb.

# SÜRƏTİ ARTIRMAĞA VƏ SƏRXOŞ HALDA AVTOMOBİL İDARƏ ETMƏYƏ GÖRƏ SANKSİYALAR SƏRTLƏŞDİRİLƏ BİLƏR

Sürəti artırmağa, düzgün manevr etməməyə və avtomobili sərxoş halda idarə etməyə görə sanksiyaların daha da sərtləşdirilməsi mümkündür.

Parlament çoxluğunun lideri Arçil Talakvadzenin sözlərinə görə, yol hərəkətinin təhlükəsizliyi sahəsində islahatlar paketinin müzakirəsinə yaz sessiyası işinə başlayan kimi baxılacaq.

Talakvadze vurğulayıb: “Tez-tez qəzalara səbəb olan hallara görə inzibati xətaların sərtləşdirilməsi mümkündür. Sürücülük hüququ imtahanı real hərəkətə keçəcək, bu da sürücülük vəsiqəsini daha etibarlı edəcək”.

O, yol hərəkəti nişanlarına, əsas təhlükəsizlik qaydalarına əməl etməyin və təhlükəsizlik kəmərlərindən istifadə etməyin gərəkli olduğunu vurğulayıb.

Talakvadze deyib: “Bu elementar qaydalar həyatın və sağlamlığın qorunması deməkdir və bu barədə adamları daha çox məlumatlandırmaq vacibdir. Bu, parlamentin, hökumətin və qeyri-hökumət təşkilatlarının birgə səyləri ilə həyata keçiriləcək yaxşı planlaşdırılan uğurlu islahat olacaq”.

# BİZİM TƏHSİLƏ MÜNASİBƏTİMİZ

***Mövzuma ümumi bir ad seçməyimə baxmayaraq, fikrim təhsilin ancaq müsbət cəhətlərini sizinlə paylaşmaq deyil. Fikrim təhsilin bizim həyatımızdakı yerini , dəyərini, məqsədini və bizim təhsilə dair fikirlərimizi araşdırıb , oxucuma çatdırmaqdır.***



Bilirik ki, təhsil həyatımızın ən önəmli faktorlarından biridir. İnsan təhsil vasitəsilə sağlamlığını, rahatlığını, bir-birinə münasibətini təmin edə bilir. İnsanı canlılardan ayıran mükəmməl göstəricilərdən biri də onun təhsil almaq və fikirləşmək qabiliyyətinin olmasıdır. Təhsil yalnız oxuduğumuz kitabların və ya dinlədiyimiz dərslərin miqdarı ilə deyil, o cümlədən baxdığımız filmlərin, etdiyimiz söhbətlərin təbiəti ilə ölçülür. İllər boyu əldə etdiyimiz təcrübələr də təhsilimizin ən önəmli parçasıdır. Hadisələrə münasibətimizi tənzimləyən yeganə struktur fikrin və təhsilin məhsuludur. Düşünürəm ki, bu günkü tarixə qədər mövcud olan insanların təhsil almaq şəraitindən ən qüsursuzuna malikik. Mövzumun sonrakı hissəsində bu şəraitdən nə dərəcədə və hansı hissəmizin yararlandığını açıqlayacağam.

Bəli, çox sevindirci haldır ki, yaşadığımız ölkədə etnik azlıq təşkil etməyimizə baxmayaraq, bir çox ailədən Gürcüstanın ən nüfuzlu universitetlərinə üz tutan gənclərimiz var. Bu pilləyə çatmaq üçün önümüzdə divarları alçaq sədlər çəkilib. Dərslərdə cuzi miqdarda fəal iştirak etmək, sərhədləri keçərkən bir qədər ağıllı davranmaq və bir qədər də təsadüf kifayətdir ki, ölkəmizin ən tanınmış universitetlərində ali təhsil alaq. Ali məktəblərdə hər il təxminən 700 azərbaycanlıya gürcu dili hazırlıq proqramında təhsil almaq imkanının verilməsi də bir daha sübut edir ki, Gürcütanda etnik azlıqların təhsil almaq imkanları kifayət qədər genişdir. 100% ödənişsiz təhsil almaq, bu, olmadıqda isə SOCAR şirkətinin təhsil almaq imkanımızda köməyi danılmazdır.

Bu şəraitin yaradılması valideynlərdə uşaqlarının təhsilə yönləndirilməsində, ali məktəbdə təhsil almaq imkanının yaradılmasında müsbət rol oynayır. Övladı ümumi qabiliyyət imtahanında səddi aşanda valideynin də kefinə övladını oxutmaq fikri düşür. Bəli, valideynlərin öz övladlarını oxutmaq istəməsi sevindirici haldır. Ancaq valideynin övladını oxumağa yollamamışdan əvvəl diqqət yetirməli olduğu məsələlərdən biri də onun potensial səviyyəsini bilməsidir.

Əlbəttə ki, məsələdə bütün məsuliyyət valideynlərin üzərinə düşmür. Həmçinin bu mövzuda gənclər və müəllimlər də məsuliyyət daşıyır.

Zənnimcə, 18 yaş sərbəst düşüncə və sərbəst qərar dövrüdür. Və bu yaşda gənc nəyi edib, edə bilməyəcəyini və nəyi istəyib-istəmədiyini biləcək ağıla sahibdir.

Düşünürəm ki, oxumaq adı ilə Tiflisə üz tutanlar məqsədlərinə görə iki qrupa bölünür: məqsədi oxumaq olanlar və məqsədi oxumaq olmayanlar. Özlüyündə məqsədi oxumaq olanlar da təhsil almaq və ya diplom xatirinə olmaqla iki yerə bölünürlər.

Bu mövzuda müəllimlərin də rolu vardır. Heç nəyə qadir olmadığı halda şagirdin qoltuğuna qarpız verən müəllimlər bu axrıncı dediyimə aiddir.

Bu mövzuda məktəblərin rolu bölgəmizdə incəsənət fənnlərinə səthi yanaşmadır. Və məncə, bu cür şəraitin olmaması məşhur memarların, musiqiçilərin, heykəltaraşların çıxmasına maneədir. Və düşünürəm ki, məhz buna görə gənclərin sənət seçimi zamanı ilk ağlına gələn iqtisadiyyat, hüquq, həkimlik kimi sənətlər olur. Sonrakı mərhələlərdə isə bu ya işsizlik, ya da ki, təhsili yarımçıq buraxmaqla nəticələnir.

Bir çox hallarda eşitdiyimiz şablon bəhanələrdən biri də "dil problemidir". Etnik azlıq olduğumuza görə nəinki dövlət dilini bilməli, o cümlədən dövlət dilində elmi mənimsəməliyik. Bəli, düzgün fikirdir, ancaq bunun yetərli bəhanə olduğunu düşünmürəm. Əgər 12 il həftənin beş günü gürcü dərslərini dinləyibsənsə, bu mövzuda dili bəhanə etməyin qəbahət olduğunu düşünürəm. Və əgər bir insan bu qədər müddətdə dili müəyyən qədər mənimsəyə bilməyibsə, düşünürəm ki, onun tək problemi yalnız dil deyil.

Düşünürəm ki, bu məsələ bu gün bizim üçün ən önəmli və diqqət yetirilməli məsələlərdəndir. Qarşımıza qoyulan bu şərait bizdən gələcək nəslin də faydalancağı təhsil gözləntisindədir.

Ümid edirəm ki, bu şəraitin yaradılmasının nəticəsi gələcək nəsli təhsil cəhətdən kor, insanları sağlamlıq baxımından xəstə qoyan kütlənin əksi ilə əvəzlənməsi olacaq.

**Anaxanım VÜQAR**

# GÜRCÜSTAN MƏKTƏBLƏRİ YAZ TƏTİLİNƏ ÇIXACAQLAR

İndiyə qədər Gürcüstan məktəblərində yalnız qış və yay tətilləri mövcud idi. Lakin Gürcüstanın Təhsil və Elm naziri Aleksandr Cecelava bunu yetərli hesab etməyib.

Nazirin əmrinə əsasən qış və yay tətillərinə yaz tətili də əlavə olunub.

Yaz tətili martın 8-dən 15-dək davam edəcək. Cecelavanın sözlərinə görə, bu, şagirdlərə müsbət təsir edəcək.

"Biz hansısa momentdə unuduruq ki, əgər uşaqlar sağlam olmasalar, fizika və kimya onlara kömək etməyəcək... Martda bizim şagirdlərin və onların valideynlərinin qış kurortlarında və ya istənilən digər kurortlarda dincəlmək, istirahət etmək və öz sağlamlıqlarına diqqət ayırmaq imkanları olmalıdır" – Cecelava Tbilisidə əməkdar



müəllimlərlə görüşündə vurğulayıb.

Nazirin fikrincə, bu təşəbbüs şagirdlərin davamiyyətinə mənfi təsir göstərməyəcək.

Xatırladaq ki, Gürcüstanda qış tətili dekabrın 30-dan yanvarın 15-dək, yay tətili isə iyunun 15-dən sentyabrın 15-dək davam edir.

# MƏDƏNİYYƏT VƏ FƏRD HAQQINDA



Kamuran

**Həyat çox qəlizdir və ona görə də özünü cəmiyyətdə sübut etmiş insanlar bu qavrama dair fərqli düşüncələr ortaya atıblar. Ancaq, bir də mədəniyyət var, hansı ki, insan övladı təbiətdən fərqli olaraq özünə başqa bir dünya yaradıb. İnsan ki, yazar olaraq bir əsər yaradır və yaratdığı əsərə də marjinal anlayış bəxş edir; eyni mədəniyyəti də insan əsər kimi yaradıb və hazırda özü həmin əsərin içində rol almaqdadır. Düşünün, mədəniyyət hara, kainat və ya təbiət hara; insan açıq-aydın kainatda və təbiətdə yaşamaqdan imtina edərək öz zehnində yaratdığı həyatda yaşamağa başlayıb. Bu əsərin başqa əsərlərdən fərqi də odur ki, burada hər kəs öz mövqeyinə əsasən baş roldadır (olmalıdır).**

Mədəniyyətdə hər kəsin öz mövqeyinə əsasən baş rolda olması, hər kəsin ayrı-ayrılıqda söz söyləmə və istədiyi kimi yaşaya bilmə haqqı olması mənasına gəlir. Ancaq, hürriyətə dair əsaslı çalışmaları olan John Stuart Mill-ə görə insan azadlığının həddi-hüdudu başqasının azadlığına xələl yetirənə qədərdir. Yəni, mən başqasının azadlığına toxunmadığım təqdirdə istədiyim hər bir şeyi etməkdə azadam. Bu tapıntılara əsasən mədəniyyətdə keçərli olan metod induksiya metodudur. Bu metoda əsasən hər hansı cəmiyyətin nə düşündüyünü yox, cəmiyyəti yaradan fərdlərin ayrı-ayrılıqda olan fikri əsas tutulur və yekun olaraq tək-tək fərdlərdən gələn fikirlərə əsasən ümumi nəticə əldə edilir. Hər kəsin öz mövqeyinə əsasən baş rolda olması budur. Yoxsa, ayrı-ayrılıqda fərdlərin düşüncəsi sorulmadan birbaşa təkcə cəmiyyətin fikri əsas tutulsa biz fərdliyimizi itirərik, onun "liderinin" fikri əsas tutulsa isə biz "kölə"yə çevrilərik...

Həyata, insanlara və ya vəziyyətlərə ötəri də olsa nəzər yetirdikdə görürsən ki, insanlar bezikmiş vəziyyətdədirlər. Ancaq, bu bezməyə dair heç kim nə çözüm gətirə bilmir və nə də bunun üçün çalışan adam görünmür. Bəs insanlıq niyə bezgin düşüb? Bu suala cavab tapmaq üçün, mənə elə gəlir başqa bir sual vermək lazımdır – insan necə fərd ola bilər? Bu sualla birlikdə Abraham Mazlovun ehtiyac şkalası nəzəriyyəsi ağlıma gəlir. Bu nəzəriyyəyə əsasən insanın ehtiyaclarını 5 kateqoriyada dəyərləndirməliyik: 1. Fiziki ehtiyaclar (yemək, içmək, nəfəs, geymək və s.) 2. Təhlükəsizlik (sağlamlıq, ailə, iş, mal-mülk və s.) 3. Aid olmaq, sevgi və dostluq. 4. Hörmət və ləyaqət (özünə sayqı, özgüvən, uğur, təqdir görmə, hörmət etmə və s.) 5. Özünü reallaşdırma və ya özsübut (ərdəmlilik, müdriklik, cəmiyyətdə özünü sübut etmək və. s.).

Məhz bu ehyiyaclardan birinin çatışmaması halında insan yalnız bezmiş olmur, həm də özünü bədbəxt sayır. Eləcə də nəzərinizə çatdırım ki, özünü bədbəxt sayan insanların əksəriyyəti özü üçün əlindən gələni etməməkdədir. Əslində induksiya metodu günümüzdə aktiv olaraq istifadə olunmaqdadır. Ancaq, fərdlərin öz mövqelərində belə baş rolu istəməməsi vəziyyətin nə yerdə olduğunun ən tutarlı sübutu olardı. Bəs söz deməyə özündə haqq tapmayan insan nə qədər həvəsli olar və ya tapmaq istəməyən şəxs nə qədər uğur qazana bilər? Tək bu deyil, eləcə də başqa ehtiyacları üçün çabalamayan insanların "mən bədbəxt yaranmışam" sözlərini dəfələrlə eşitmişik. Həm də insanın öz ayaqları üzərində dura bilməsi və alın təriylə işinə əmək verməsi, məncə, işin ən xoş tərəfidir. Yoxsa halvadan gələn şeylər çox dəyərsiz olurlar. Üstəgəl, artıq uğurlu olmaq üçün keçmişə nəzərən daha çox çalışmaq lazımdır, çünki, insan övladı böyüdüyü zaman keçmişin təkrarını yaşayanda bezməyə başlayır. Həm də yaşadığımız "mədəniyyət əsərin"də keçmişdə görülmüş işlərin təkrarı zamanı tavtoloqiya alınır və beləliklə nə əsər heç cəlbedici görünməyəcək, nə də insan oğlu yaşamağa-yaratmağa həvəs duymayacaq. Tarixdə bir az keçmiş dövrlərə nəzər yetirsək insanların ilhamverici "sehirli" həvəslər duyduğunu asanlıqla başa düşərik. Çünki, onlar tapırdı, yaradırdı və kəşf edirdi. Hazırda isə sanki hər şey bitmiş kimi bir yerdə oturmaqla heç nə alınmayacaq. Sovetin və lazımsız ehkamların təsir qəfəsini darmadağın edərək adanı tərk etməli və dənizlərə açılmalıyıq. Çünki, kapitan yalnız dənizə açıldığı zaman yaşadığını hiss edər. Üstəgəl, dənizin ötəsindəki şeyləri görməyə həvəsli olmayan fırtınalara necə dözər?..

**P. S. Bir məsəl var: bizim biz olmağımız üçün əvvəlcə mən mən olmalıyam. Bəs bizim biz olmağımız üçün kimdir özünü axtaran? Doğuşdan etibarən "özünü" özü sanan insanların ucbatından dəfələrlə insanlar bədbəxt olur, çünki, onların yaşadığı mühitdə doğulanlar da bilavasitə onlara bənzəyir. Halbuki, doğuşdan etibarən insanların ehtiyaclarının bilavasitə qarşılanma ehtimalı göstərilən şkalada 1-ci, 2-ci və nadir hallarda da 3-ü qrup ehtiyaclar ola bilər, ancaq, bu şkalada insanın özünü yaxşı hiss etməsi üçün 3-cü, 4-cü və ən əsası da 5-ci ehtiyac qrupundan məhrum qalmamalıdır. Bunun üçün də cəhd göstərməlisən. Başqa yol yoxdur. Artıq insanın taleyinin öz əlində olduğunu düşünənəcək qədər olqunlaşmayanlar varsa, o başqa...**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*31 yanvar 2017-cı il*
*№002 (40)*

*yeni_yol@mail.ru* | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## NİNO KATAMADZE YAY MÖVSÜMÜNÜ BAKIDA AÇACAQ



Gürcü müğənnisi öz qrupu ilə birlikdə Bakı konsertində yeni albomunu təqdim edəcək və məşhur caz kompozisiyalarını ifa edəcək. Nino Katamadzenin konserti iyunda Bakıda Yaşıl teatrının səhnəsində olacaq.

Katamadze Bakıya özünün Insight qrupu və "Kvartet N" kollektivinin solistləri ilə gedəcək. Müğənni bakılılara özünün 2016-cı ilin əvvəlində Berlində yazılmış yeni Yellow albomunu təqdim edəcək. O, konsertdə təkcə yeni kompozisiyalarını deyil, özünün ən məşhur mahnılarını da səsləndirəcək.

Katamadze dörd yaşından səhnədədir. 1990-cı ildə Batumi Musiqi İnstitutunun vokal fakültəsinə daxil olaraq, tezliklə həvəskar səhnəyə çıxa bilib. 1994-cü ildə əlil və sosial müdafiəsi olmayan artistlər üçün xeyriyyə fondu yaradıb.

Ninonun peşəkar fəaliyyəti 2000-ci ildə Insight qrupunun təsisçisi Qoça Kaçeişili ilə əməkdaşlıq etməklə başlayıb. Müğənni çoxsaylı mükafatlara sahibdir, onların arasında "İlin ən yaxşı müğənnisi", "Ən yaxşı ifaçı müəllif", "Ən yaxşı orijinal musiqi", "Şou-biznes sahəsində ilin siması" və digərlərinin adını çəkmək olar.

## 16 YAŞLI MƏKTƏBLİ, ÖZ SAYTINI 6 MİLYON DOLLARA SATMAQDAN İMTİNA ETDİ

Britaniyalı Mohammed Ali adlı 16 yaşlı məktəbli öz saytını 6 milyon dollara satmaqdan imtina edib.

Məlumata əsasən Mohammed Ali, öz 60 yaşlı şəriki Chris Thorpe ilə birlikdə fərqli bir xidmət yaradıb. Belə ki, Weneed1.com servisi, bazarın təqdim etdiyi məhsulların qarşılaşdırılması və sərfəli qiymətə tapılması üzrə fəaliyyət göstərir. Sayt ilə amerikalı investorlar maraqlanıblar və Mohammedə layihəni 6 milyon dollara satmağı təklif ediblər.

Mohammed Ali təklifdən imtina edib. O bildirib ki, əgər ideya və konsepsiyaya görə bu cür məbləğ ödəyirlərsə, deməli, gələcəkdə servis daha da bahalaşacaq. "Mən başa düşürəm ki, bu böyük riskdir. Lakin mən öz şəxsi işimi yaratmaq istəyirəm" – deyə Mohammed qeyd edib.

Hələ 2014-cü ildə Mohammed, 7.5 dollar abunə haqqı olan oyun yaradaraq 40.000 dollar qazanmışdı. "Mən hər



şeyi kitablardan və YouTube videolarından öyrəndim. Hər şey məktəbdə verilən təhsillə həll olunmur. Təhsil sistemi bir qədər pisləşib. Mən insanları ilhamlandırmaq istəyirəm. Hər həftənin cümə günü doyunca içki içən gənclərə nifrət edirəm" – deyə Mohammed əlavə edib.

## YAPON ALİMLƏRİ KÖK HÜCEYRƏLƏRİNDƏN NAZİK BAĞIRSAQ YARATDILAR



Yapon tədqiqatçılar insan embrionunun kök hüceyrələrindən nazik bağırsaq yaratmağa nail olublar.

Bu uğura Yaponiya Milli Uşaq Sağlamlığı və İnkişafı Mərkəzinin direktoru Hidenori Akutsunun rəhbərlik etdiyi tədqiqatçılar qrupu imza atıb.

Alimlər üç növ xüsusi zülalı insan embrionunun kök hüceyrələrinə əlavə ediblər. Onların bildirdiyinə görə, bundan sonra 1-2 ay müddətində təqriben bir santimetr uzunluğunda nazik bağırsaq əmələ gəlib.

Tədqiqatçılar qeyd ediblər ki, bu nəticə gələcəkdə nazik bağırsağın ağır xəstəlikləri zamanı yeni müalicə üsullarının tətbiqinə imkan yaradacaq.

## BİLDİRİŞ

"Akbari" r/k kooperativinin ləğvolunması baş verib.
Kreditorlardan və digər maraqlanan şəxslər - dən xahiş edirik ki, kooperativin: Qardabani rayonu, Vaxtanqisi kəndi – huquqi unvanına muraciət etsin - lər.
Telefon: 599 16 03 56

## განცხადება

გაუქმდა კორპორაცია რ/კ „აკბარი".
კრეტიდორებსა და სხვა დაინტერესებულ პირებს ვთხოვთ, მოგვმართონ კორფორაციის იურიდიულ მისამართზე: გარდაბნის რაიონი, სოფელი ვახტანქისი.

ტელ: 599 16 03 56

## QATARLARDA KİTABXANA YARATMAQ PLANLAŞDIRILIR



"Gürcüstan Dəmir Yolları" qatarlarda kitabxana yaratmaq işinə start verib. İdarənin ictimaiyyətlə əlaqələr üzrə meneceri Daçi Çaquriya artıq kitabxana üçün kitabların toplanmasına başlanıldığını bildirib.

O, qeyd edib ki, bu təşəbbüs bir neçə gün əvvəl səsləndirilib. Arzu edənlər "Gürcüstan Dəmir Yolları"na kitab bağışlaya bilərlər. Bunun üçün onlar kitabları Tbilisi mərkəzi vağzalında kassaların yanındakı növbətçi otağına gətirə bilərlər.

Daçi Çaquriya kitabların siyahıya alınacağı, sərnişinlərin qatara mindikdən sonra gedib kitab seçmək və yolboyu oxumaq imkanlarının olacağı və qatardan düşəndə kitabı bəldçiyə qaytarmalı olacaqları barədə məlumat verib.

"Gürcüstan Dəmir Yolları" bu təşəbbüs yaya qədər həyata keçirməyi düşünür.

## ÇİNLİ ROBOT-JURNALİST ÖZÜNÜN İLK MƏQALƏSİNİ ÇAP ETDİRİB



Çinli mütəxəssislərin yaratdığı Syao Nan adlı robot-jurnalist Southern Metropolis Daily qəzetində özünün debüt məqaləsini çap etdirib.

Material Çin Yeni ili ərəfəsində səfərlərin artmasına həsr olunub.

Syao Nana 300 heroqliflik qeydlər etmək üçün cəmi bir saniyə lazım gəlib.

Pekin universitetinin professoru Van Syaotszyun insana nisbətən robotun həm kiçik, həm də böyük həcmli mətnlər yazmaq, habelə daha çoxsaylı məlumatları təhlil etmək qabiliyyətinə malik olduğunu vurğulayıb. Lakin, o, qeyd edib ki, bu, yaxın gələcəkdə robotların jurnalistləri əvəzləyəcəyi anlamına gəlmir.

Hələlik bu texnoloji yenilik müsahibə götürə bilmir, əvvəlki suallara əsasən əlavə suallar verə bilmir.

Lakin robotun yaradıcısı nikbindir və gələcəkdə qurğunun nəşriyyatların yaxın köməkçisi olacağını güman edir. Buna görə, o, Southern Metropolis Daily nəşri ilə işlədiyini və KİV-in inkişafı və öyrənilməsi üçün xüsusi laboratoriya yaratdığını bildirib.

## DÜNYANIN ƏN NƏHƏNG EKSKAVATORU



Uzaq keçmişdə maşınları ev heyvanları və sadə vasitələr – ling, ağırlıq qaldıran mexanizm, qarqara əvəz edirdi. Lakin tərəqqi öz işini gördü. İnsan su, buxar və elektrik kimi təbii ehtiyatların sirrini öyrənə bildi. İnsanlar bizim əvəzimizə ən mürəkkəb, ağır və təhlükəli işlər görə bilən nəhəng mexinizmlər yarada bildilər. Onlardan bəzilərinin ölçüsü heyrətləndiricidir. Burada belə mexanizmlərdən biri haqqında məlumat verməyi məqsədəuyğun hesab edirik.

Dünyanın ən nəhəng ekskavatoru hesab edilən bu maşın bir nüsxə hazırlanıb və hazırda Kanadada fəaliyyət göstərir. Bu maşın şəhərlərdən birini elektrik enerjisi ilə təmin etmək üçün koks kömürü çıxarılmasında istifadə olunur. Kömür təbəqəsi otuz metr dərinlikdədir. Qoliaf adlandırılan ekskavatorun vəzifəsi kömür təbəqəsinə çatıb, onu çıxarmaqdan ibarətdir.

Ekskavatorun hündürlüyü 68 metrdir. Onun ağırlıq qaldıran hissəsinin uzunluğu 123 metr, çalovunun ağırlığı isə 240 tondur. Ekskavator müstəqil hərəkət etsə də, onun sürəti cəmi 300 metr/saatdır. O, xüsusi xizəklər vasitəsilə hərəkət edir. Bu maşını cəmi iki nəfər idarə etsə də, onun baxımı üçün tam bir mexaniklər briqadası çalışır. Bir növbə ərzində ekskavator yerdən 50 min ton suxur çıxara bilir.

**Təsisçi:**
*"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"*

***Redaktor*:**
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru*:**
**Hacı Bəkiroğlu**

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 595 92 25 70*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.